


*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ QAPISI

**100 ilin qəzeti**

Sayı: 35 (24.417)

*2 sentyabr 2024-cü il, bazar ertəsi*

www.serqqapisi.gov.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*

## Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva səs veriblər







Sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Bakı şəhərinin 7 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 1 saylı seçki məntəqəsində səs veriblər.

Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı.

Sonra birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva səs verdilər.

Qeyd edək ki, Bakı şəhərinin 7 saylı Səbail seçki dairəsinin 1 saylı seçki məntəqəsində 579 seçici qeydiyyata alınıb. Bu seçki dairəsi üzrə 8 namizəd mübarizə aparır.





## Xankəndidə seçkilərlə bağlı “Exit-poll” təşkil olunub

Xankəndi şəhərində növbədənkənar parlament seçkiləri ilə bağlı “Exit-poll” təşkil olunub.

APA-nın Qarabağ bürosu xəbər verir ki, 122 saylı Xankəndi seçki dairəsinin Xankəndi şəhərindəki 14 saylı seçki məntəqəsində “Exit-poll” fəaliyyət göstərir.

“Exit-poll” “Tərəqqi” Sosial Tədqiqatlar İctimai Birliyi və SWG S.P.A Tədqiqatlar Şirkəti (İtaliya) tərəfindən keçirilir.

# Mən bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim...



## Prezident İlham ƏLİYEV:

***"Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük xidməti vardır. Ulu Öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən mühüm qərarların təşəbbüskarı olmuşdur."***

Azərbaycan xalqının tarixində əlamətdar hadisələr, yaddaqalan günlər, bayramlar çoxdur və hər birimiz onları böyük təntənə ilə qeyd edirik. Müasir Azərbaycan tarixinin, Azərbaycan dövlətçiliyinin qurucusu və memarı olan, hələ sağlığında hər birimizin qəlbində özünə əbədi yer qazanmış Ulu Öndər Heydər Əliyevlə bağlı belə tarixi günlər isə onların fövqündə dayanır. Bunlardan biri də, heç şübhəsiz, 1990-cı ilin 3 sentyabr tarixidir.

Bir qədər yaxın keçmişə ekskurs edək. Azərbaycanın qədim və ayrılmaz diyarı olan Naxçıvan ölkəmizin dövlətçilik tarixinin intişar tapdığı yurd yerimizdir. Məhz buna görə də Ulu Öndər deyirdi ki, Naxçıvanın qədim dövlətçilik tarixi vardır, bu, Azərbaycanın dövlətçilik tarixidir. Ümummilli Liderimizin Naxçıvana verdiyi bu yüksək qiymətin arxasında, sözün gerçək mənasında, böyük və şərəfli bir tarix dayanır. Naxçıvanı müqəddəslik rəmzi sayan, coğrafi vəziyyətinə görə bu diyarda ölkəmizin torpaqlarının, sərhədlərinin qorunmasının xüsusi əhəmiyyət kəsb etməsini dəfələrlə vurğulayan, bu istiqamətdə fövqəlbəşər tədbirlər həyata keçirən görkəmli dövlət xadimi 1990-cı ildə Bakıda baş verən Qanlı Yanvar hadisələrindən sonra böyük çətinliklə doğma Azərbaycana qayıda bildi. Və O, əvvəlcədən də düşündüyü kimi burada onun yaşayacağının çətin olacağı ucbatından Naxçıvana üz tutdu. O günləri yaşayan, baş verən hadisələri görən biri kimi deyərdim ki, dahi rəhbərin qədim yurd yerinə qayıdışı ilə tariximizdə yeni bir səhifə açıldı və bununla da Azərbaycanın gələcək uğurlu taleyinin bünövrəsi qoyuldu.

Naxçıvanlılar inanırdılar ki, artıq yaşadıqları çətinliklər tez bir zamanda aradan qaldırılacaq, ictimai-siyasi sabitlik bərqərar ediləcək, daha heç kim saatlarla çörək növbələrində dayanmayacaq, işıq, qaz, çörək problemi öz həllini tapacaq.

Dahi şəxsiyyətin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi illərdə həyata keçirdiyi tədbirlər, təbii ki, çoxdur və bunlar barədə ətraflı məlumat vermək mümkünsüzdür. Ancaq bir məsələni xüsusi qeyd etmək istərdim. O dövrdə Ulu Öndər təkcə naxçıvanlıların deyil, həm də Naxçıvandan kənarda yaşayan soydaşlarımızın pənah yerinə çevrilmişdi. Bunu görkəmli dövlət xadiminin şərəfinə yaradılmış müqəddəs bir ünvanda – Heydər Əliyev Muzeyində saxlanılan məktub və teleqramlar da təsdiq edir.

Görülən işə həmişə dəyər verməyi vətəndaşlıq, mənəvi borc hesab edən naxçıvanlılar Ulu Öndərin 1990-cı ilin sentyabr ayının 30-da Azərbaycan və Naxçıvan parlamentlərinə keçirilən seçkilərdə 340 nömrəli Nehrəm seçki dairəsindən Azərbaycana, 2 nömrəli seçki dairəsindən Naxçıvana deputat seçilməsinə nail oldular. Bu, dahi şəxsiyyətin fəaliyyət dairəsinin daha da genişlənməsinə, Naxçıvanın, ümumilikdə isə ölkəmizin düşdüyü ağır vəziyyətdən qurtarmasına imkanlar açdı. Böyük həyat təcrübəsi, insanlarla işləmək bacarığı, siyasət aləmindəki nüfuzu görkəmli dövlət xadiminin qarşıya qoyduğu vəzifələrin yerinə yetirməsini gerçəkləşdirdi.

Vəzifələrsə az deyildi. Həm ölkədə, həm də Naxçıvanda illərdən bəri yığılıb qalmış problemlər – bunlar isə bir deyil, beş deyildi – əhalinin ağır gün-güzəranı, kommunikasiya xətlərindəki acınacaqlı vəziyyət, Naxçıvanın müdafiəsi dahi şəxsiyyəti düşündürən gündəlik məsələlər idi. Bunlarsa gecəli-gündüzlü işləmək tələb edirdi. Ulu Öndər görürdü ki, naxçıvanlılar ən çətin günlərdə belə ruhdan düşmürlər. Və görürdü ki, bu qədim yurd yerinin sakinləri Onun ətrafında sıx birləşiblər. Dahi rəhbərin hər hərəkətini, hər addımını, gördüyü hər bir işi ürəkdən dəstəkləyirlər...

...Görkəmli dövlət xadiminin sədrliyi ilə 1990-cı ilin 17 noyabrında Naxçıvan parlamentinin yeni tərkibdə keçirilən ilk sessiyasında dahi öndərin hazırladığı bir sıra taleyüklü məsələlər gündəliyə çıxarıldı. Sessiya iştirakçıları həmin məsələlərin öz həllini tapmasında fəallıq göstərdilər. Həmin sessiyada "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında", "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" və başqa məsələlərlə bağlı tarixi qərarlar qəbul edildi. Sessiya, həmçinin Naxçıvan Muxtar Sovet Sosialist Respublikası adından "Sovet Sosialist" sözlərinin çıxarılması, Naxçıvanın Ali Sovetinin adını dəyişərək onun bundan sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması haqqında qərara müsbət yanaşdı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı ilk dəfə olaraq Naxçıvanda qaldırıldı. Bu gün səmimi olaraq etiraf edilməlidir ki, həmin dövrdə belə qətiyyətli addımları ancaq Ümummilli Lider ata bilərdi. Həmin dövrdə naxçıvanlıların ən böyük arzusu idi ki, muxtar respublikaya O rəhbərlik etsin. Buna görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il sentyabrın 3-də keçirilən fövqəladə sessiyasında deputatların və iclas keçirilən binanın qarşısına toplaşan minlərlə insanın təkidli tələbi ilə görkəmli dövlət xadimi Heydər Əliyev Ali Məclisin Sədri seçildi. Bu tarixi sessiya Ulu Öndərin dahi siyasətçi, bu xalqın böyük oğlu olmasını bir daha göstərdi. Həmin sessiyadakı çıxışı Ulu Öndərin Naxçıvana, burada yaşayan insanlara böyük sevgisinin ifadəsi idi: ***"Mən bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim. Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə düşən vəzifənin ifasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm".***

Görkəmli dövlət xadiminin təşəbbüsü ilə 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin yaradılması haqqında" Qərar qəbul etməsi qədim diyarımızın müdafiə qabiliyyətinin gücləndirilməsinə böyük diqqətin ifadəsi, Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların muxtar respublikada saxlanmasının təmin olunması, bununla Naxçıvanın müdafiə potensialının gücləndirilməsi xalqımızın böyük oğlunun ardıcıl olaraq həyata keçirdiyi tədbirlər idi.

***"Harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı Vətən qarşısında övladlıq borcunu hiss etməli, respublikanın qayğıları, problemləri ilə yaşamalı, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmalıdır. Hər bir azərbaycanlı bilməlidir ki, onun arxasında yalnız güclü, nüfuzlu və müstəqil Azərbaycan dövləti dayana bilər"***, – deyən dahi şəxsiyyət o dövrdə həm də Azərbaycan xalqının milli həmrəyliyinin ideoloji əsaslarını yaradaraq dünya azərbaycanlılarını Vətənə və xalqa xidmət uğrunda birləşməyə səslədi. Bu baxımdan 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən "31 Dekabr – Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarın qəbul edilməsi xüsusi əhəmiyyətə malikdir və illərdir ki, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar tərəfindən sevinclə qeyd olunur.

***"İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin"***, – deyən Ulu Öndər elə o istək və arzuları 1990-1993-cü ildə reallaşdırmağa çalışırdı.

...Ulu Öndərin muxtar respublikamıza rəhbərliyi dövrü bu qədim diyar ölkədən təcrid olunmuş vəziyyətdə idi. Vaxtilə öz əməllərinə görə Ümummilli Lider tərəfindən tənqid edilən, işdən uzaqlaşdırılan, öz şəxsi ambisiyalarının quluna çevrilən bəzi başıboş rəhbərləri Naxçıvanın blokada şəraitindəki vəziyyəti qətiyyən maraqlandırmırdı. Ada timsallı bu yurd yerində qaz, işıq, rabitə məsələlərinin həll olunması böyük vəsaitlə yanaşı, həm də vətənpərvərlik, xalqa bağlılıq tələb edirdi. Bu keyfiyyətləri özündə birləşdirən dahi rəhbər bu çətinliklərin həlli yolunu qonşu ölkələrlə sıx əlaqələr qurulmasında gördü.

Qonşu İran İslam Respublikasına və Türkiyə Cümhuriyyətinə səfərləri zamanı müxtəlif sahələrdə mövcud olan çətinliklərin həlli ilə bağlı imzaladığı protokollar bu məqsədə xidmət edirdi. Dahi rəhbərin bu istiqamətdə həyata keçirdiyi tədbirlər öz bəhrələrini verməyə başladı. Ulu Öndərin ciddi səyləri hesabına Araz çayı üzərində inşasına başlanılmış "Ümid" körpüsü qısa vaxtda həyata vəsiqə aldı. Bu, naxçıvanlıların qardaş Türkiyə Cümhuriyyətinə, türkiyəli qardaşlarımızın isə Naxçıvana gedib-gəlmələrinə imkan verdi. Naxçıvandan kənara açılan qapılar isə onu göstərirdi ki, artıq qədim diyarımız öz tarixinin yeni mərhələsinə qədəm qoymaqdadır.

Sonralar ***"Çox məmnunam ki, Azərbaycanın müstəqilliyi yolunda yenə də Naxçıvan durur"***, – deyən dahi şəxsiyyət Azərbaycanda gedən prosesləri görürdü. Ölkəmizin digər bölgələrində yaşayanlar isə Naxçıvanda həyatın öz axarına düşməsinə sevinsələr də, paytaxt Bakıda oturanların ölkəni başlı-başına buraxmaları günün reallığı idi. Azərbaycana güclü rəhbər lazım idi ki, bir vaxtlar dahi öndərin qurub-yaratdığı, indi isə bərbad vəziyyətə düşmüş ölkəni xilas edə bilsin.

Görkəmli dövlət xadimi Azərbaycan ziyalılarının "Azərbaycan sizi gözləyir" adlı müraciətinə həssaslıqla yanaşaraq öz vətəndaş mövqeyini ortaya qoydu. Xalqın ona bəslədiyi ümidləri doğrultmaq üçün ömrünün qalan hissəsini də xalqına bağışlamağa hazır olan Ulu Öndər adıçəkilən məktuba müsbət cavab verdi və 1992-ci il noyabr ayının 21-də ölkəmizin müxtəlif regionlarından Naxçıvana gələn 550-dən artıq nümayəndənin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi.

Ümummilli Lider Heydər Əliyevin partiyaya sədr seçilməsi respublikanı bürümüş gərgin, təhlükəli ictimai-siyasi vəziyyətin getdikcə daha da ağırlaşmasından irəli gələn zəruri tarixi hadisə idi. Ozamankı hakimiyyət dairələrinin Yeni Azərbaycan Partiyasının yaranmasına göstərdikləri maneələr, ardıcıl təzyiqlər bu yola qədəm qoyan insanların əzm və iradəsini qıra bilmədi. Bütün uzaqgörən insanlar Heydər Əliyevin rəhbəri olduğu bu qurumun xilaskar bir missiya üçün yarandığını duyur və Yeni Azərbaycan Partiyasına dəstəklərini əsirgəmirdilər. Həmin dövrü Ulu Öndər belə xatırlayırdı: ***"Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir... Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan... ağır şəraitdə böyük təqiblər şəraitində yaranmış bir partiyadır".***

Müxalif partiya kimi yaradılan bu qurum bu gün öz sıralarında Heydər Əliyev siyasətini dəstəkləyənləri birləşdirir və fəaliyyətini artıq hakim partiya kimi davam etdirir. Heydər Əliyev siyasətinin təntənəsidir ki, partiya ölkəmizin ictimai-siyasi həyatında böyük və əvəzolunmaz rola malikdir...

...Qarşıda isə onu bir vaxtlar ayağa qaldırdığı, lakin fəaliyyətləri şəxsi ambisiyaları üzərində qurulan dövlət məmurlarının səriştəsizliyi ucbatından günü-gündən geri düşən Azərbaycan gözləyirdi. Xalqın tələbi ilə yenidən ölkəmizə hakimiyyətə qayıdan Heydər Əliyev bugünkü Azərbaycanı sıfırdan qurmağa başladı. Qarşılaşdığı heç bir çətinlik görkəmli siyasət xadimini qorxutmadı. Çoxillik idarəetmə təcrübəsi, kadrlarla işləmək bacarığı, şəxsi nüfuzu və ən başlıcası Böyük Azərbaycançılığı, vətənpərvərliyi hesabına qarşısına qoyduğu məqsədə nail ola bildi.

Yunan filosofu Platonun "Ağıllı dövlət başçısı baş verə biləcək hadisələrin qarşısını peşəkarcasına almaqla, əslində, öz dövlətinə və xalqına xidmət edir. Çünki heç bir dövlət başçısı əbədi deyil, amma onun qurduğu dövlət isə əbədi olur və banisini bəşər tarixi boyu yaşadır" fikrini bütünlükdə Ümummilli Liderimizin həyati və siyasi fəaliyyətinə aid etmək olar.

...3 sentyabr 1991-ci il. O gündən 33 il keçir. Bir qərinəlik bu illər ərzində hər gün, hər saat dəyişən məmləkətimiz başdan-ayağa, sözün həqiqi mənasında, hər sahədə yeni quruculuq donundadır. Gündən-günə sayı artan məktəb, səhiyyə, mədəniyyət ocaqlarının yeni binaları, salınan yaşayış massivləri, yeni emal və istehsal müəssisələrinin həyata vəsiqə alması, insanların məşğulluq probleminin həllinə nail olunması, informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinin tətbiqi... Bunlar Naxçıvanın bugünkü mənzərəsi, görkəmli dövlət xadimi Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının qədim diyarımızda uğurla həyata keçirilməsidir.

Naxçıvanda görkəmli dövlət xadiminin yaratdıqlarını yaşatmaq, daha da zənginləşdirmək bu günün gerçəkliklərdir. Ulu Öndərin yoluna ehtiram və sədaqətini öz fəaliyyəti ilə göstərən ölkə başçısının muxtar respublikada yeni idarəetmə modelinin tətbiqi ilə bağlı imzaladığı 2022-ci il 22 dekabr tarixli Fərmanla Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Əsasnamə təsdiq olunub. Bu isə naxçıvanlılarda yeni ovqat yaradıb, onların qurub-yaratmaq əzmini daha da yüksəldib. Ata vəsiyyətini ən müqəddəs vəzifə sayan ölkə başçısının Naxçıvanın inkişafı üçün lazım olan hər bir işi görməsi isə ərazi cəhətdən blokada şəraitində yaşayan bu yurd yerinin sakinlərinin heç bir çətinliklə üzləşməməsi məqsədi daşıyır. Elə cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" bunun bir daha sübutudur. Ötən ilin sonunda naxçıvanlılar daha bir sevinc yaşadılar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" 2023-cü il 30 dekabr tarixli Sərəncam imzaladı. Sərəncamda deyilir: *"Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük xidməti vardır. Ulu Öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən mühüm qərarların təşəbbüskarı olmuşdur".*

**Muxtar MƏMMƏDOV**

# Naxçıvanda Türkiyənin Zəfər bayramı qeyd olunub







Avqustun 30-da Türkiyənin Naxçıvandakı Baş Konsulluğunun təşkilatçılığı ilə konsulluğun iqamətgahında Türkiyə Respublikasının Zəfər bayramı və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Türkiyənin Naxçıvandakı baş konsulu Asip Kaya, dövlət və hökumət nümayəndələri iştirak ediblər.

Əvvəlcə qardaş xalqlarımızın şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirilib.

Sonra Türkiyə xalqının zəfər tarixindən bəhs edən videoçarx nümayiş etdirilib.

Tədbirdə Türkiyənin Naxçıvandakı baş konsulu Asip Kaya qonaqları salamlayıb, böyük öndər Mustafa Kamal Atatürkün "Türkün qapısı" adlandırdığı Naxçıvanda bayramı birgə qeyd etməkdən məmnunluğunu ifadə edib, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəfər bayramı münasibətilə Türkiyənin xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə göndərdiyi təbrik məktubunu oxuyub.

Baş konsul Azərbaycan-Türkiyə qardaşlığının və dostluğunun dünyaya örnək olduğunu bildirib, ölkə başçılarının müəyyənləşdirdiyi hədəflər əsasında birliyimizin, birgə əməkdaşlıq və strateji müttəfiqliyimizin davamlı inkişaf xətti ilə irəlilədiyini qeyd edib. Naxçıvan Muxtar Respublikasının 100 illiyi münasibətilə təbriklərini çatdıran Asip Kaya Naxçıvanın bu yolda tarixboyu apardığı haqlı mübarizəni ortaq türk tarixinin şanlı səhifələrindən biri kimi dəyərləndirib. Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı şanlı zəfəri və antiterror əməliyyatları nəticəsində suverenliyinin tam bərpasını böyük sevinc və qürur hissi ilə qarşıladıqlarını vurğulayan baş konsul sentyabrın 1-də keçiriləcək parlament seçkilərində uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Türkiyə xalqının şanlı zəfərini birlikdə qeyd etməyin böyük məmnunluq doğurduğunu ifadə edib, qardaş Türkiyə xalqını təbrik edib. Vurğulayıb ki, bu şanlı zəfər böyük Türkiyə dövlətinin müstəqillik yolunda əsaslı dönüm nöqtəsi olub, qardaş xalqın sarsılmaz iradəsini, yenilməzliyini, mübarizliyini və əzmini bütün dünyaya bəyan edib.

Azərbaycan və Türkiyə şəhidlərinin xatirəsini ehtiramla yad edən səlahiyyətli nümayəndə qardaşlıq və dostluq münasibətlərimizin prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən davam etdirilərək yüksək zirvələrə çatdığını vurğulayıb. Qeyd edib ki, Azərbaycan-Türkiyə münasibətləri xalqlarımızın birlik və bərabərliyini ifadə etməklə yanaşı, bölgədə sülhün və əmin-amanlığın da qarantıdır. Ümid körpüsü yalnız coğrafi birliyimizi deyil, eyni zamanda bir millət, iki dövlət münasibətlərimizi təcəssüm etdirir. Gələcəkdə reallaşdırılacaq Zəngəzur dəhlizi bu əlaqələri möhkəmləndirməklə Naxçıvanın enerji və nəqliyyat-tranzit imkanlarından daha geniş və səmərəli istifadə olunmasında önəmli rol oynayacaq. Dövlət başçılarımızın iştirakı ilə Naxçıvanda təməli qoyulan İğdır-Naxçıvan qaz kəmərinin inşası da, bu mənada, böyük əhəmiyyət daşıyır.

Sonda Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi tərəfindən hazırlanmış Türkiyənin şanlı hərb tarixindən bəhs edən videoçarx nümayiş olunub.

# Səlahiyyətli nümayəndə Naxçıvan şəhərində 4 saylı seçki dairəsinin 32 saylı seçki məntəqəsində səs verib





Sentyabrın 1-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli 4 saylı Naxçıvan şəhər seçki dairəsinin Naxçıvan Dövlət Texniki Kollecində yerləşən 32 saylı seçki məntəqəsində səs verib.

Səlahiyyətli nümayəndə, həmçinin burada təşkil olunmuş Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər üzrə 27 saylı seçki dairəsində də səs verib.

Müşahidəçilər məntəqədə səsvermə prosesini izləyiblər.

Səlahiyyətli nümayəndə komissiyanın işinə uğurlar arzulayıb.

Qeyd edək ki, 2024-cü il sentyabrın 1-i ölkəmizdə Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar parlament seçkiləri ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə də seçkilər günüdür. Muxtar respublikada seçkilərin qanunvericiliyin tələblərinə uyğun keçirilməsi üçün zəruri tədbirlər görülüb.

# Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərin dairələr üzrə lider namizədləri

| Seçki dairəsinin adı | Soyadı, adı, atasının adı | Topladığı səs *(faizlə)* |
|---|---|---|
| 1 saylı Sədərək seçki dairəsi | İsmayılov Mahir İslam oğlu | 52.32 |
| 2 saylı Dəmirçi seçki dairəsi | Quliyeva Zeynəb Kərim qızı | 54.80 |
| 3 saylı Maxta seçki dairəsi | Şıxəliyev Emin Arif oğlu | 60.70 |
| 4 saylı Yengicə seçki dairəsi | Abbasov Əli Feyzulla oğlu | 57.39 |
| 5 saylı Çomaxtur seçki dairəsi | Nəcəfsoy Pərvin Vidadi qızı | 61.19 |
| 6 saylı Çərçiboğan seçki dairəsi | Babayeva Aynur Arif qızı | 50.58 |
| 7 saylı Xanlıqlar seçki dairəsi | Novruzov Azad Sevindik oğlu | 63.09 |
| 8 saylı Düdəngə seçki dairəsi | Bayramov Mübariz Rəcəb oğlu | 74.07 |
| 9 saylı Mahmudkənd seçki dairəsi | Şükürov Kamil Qəzənfər oğlu | 51.31 |
| 10 saylı Şərur şəhər seçki dairəsi | Hacıyeva Sevil Məhəmmədəli qızı | 54.74 |
| 11 saylı Aşağı Yaycı seçki dairəsi | Həsənova Sevinc Nəsrəddin qızı | 59.17 |
| 12 saylı İbadulla seçki dairəsi | Məmmədov Məmməd Kərəm oğlu | 61.80 |
| 13 saylı Püsyan seçki dairəsi | Novruzov Rafiq Novruz oğlu | 53.41 |
| 14 saylı Qarabağlar seçki dairəsi | Zeynalov Təbriz Eyvaz oğlu | 65.28 |
| 15 saylı Qıvraq seçki dairəsi | Orucova Xəzəngül Yunis qızı | 56.19 |
| 16 saylı Xok seçki dairəsi | Məmmədov Mövlan Ələddin oğlu | 57.18 |
| 17 saylı Nehrəm seçki dairəsi | Cəfərov Rauf Mehralı oğlu | 68.48 |
| 18 saylı Nehrəm seçki dairəsi | Rzayev Teymur Yaqub oğlu | 56.64 |
| 19 saylı Babək şəhər seçki dairəsi | Allahverdiyeva Həbibə Rəşad qızı | 63.51 |
| 20 saylı Zeynəddin seçki dairəsi | Həşimov Əli Həsənqulu oğlu | 54.67 |
| 21 saylı Sirab seçki dairəsi | Qənbərov Qafar Tahar oğlu | 60.05 |
| 22 saylı Şıxmahmud seçki dairəsi | Məmmədov Üzeyir Səyyad oğlu | 68.86 |
| 23 saylı Cəhri seçki dairəsi | Bayramova Ülkər İmamqulu qızı | 52.53 |
| 24 saylı Naxçıvan şəhər seçki dairəsi | Əliyeva Nuray Yadigar qızı | 49.92 |
| 25 saylı Naxçıvan şəhər seçki dairəsi | Məmmədova Xumar Şəmsi qızı | 55.40 |
| 26 saylı Naxçıvan şəhər seçki dairəsi | Orucov Asəf Yunis oğlu | 52.32 |
| 27 saylı Naxçıvan şəhər seçki dairəsi | Məmmədzadə Vüsal Əziz oğlu | 62.79 |
| 28 saylı Naxçıvan şəhər seçki dairəsi | Babayeva Təhminə Adil qızı | 56.12 |
| 29 saylı Naxçıvan şəhər seçki dairəsi | Məmmədov Bəhruz Qibləli oğlu | 61.87 |
| 30 saylı Naxçıvan şəhər seçki dairəsi | Əhmədova Şəhla Hüseyn qızı | 54.28 |
| 31 saylı Naxçıvan şəhər seçki dairəsi | Məmmədov Nazim Məmməd oğlu | 69.73 |
| 32 saylı Naxçıvan şəhər seçki dairəsi | Qasımov Əziz Kamal oğlu | 57.89 |
| 33 saylı Naxçıvan şəhər seçki dairəsi | Dünyamalıyeva Aysel Məmməd qızı | 48.50 |
| 34 saylı Şahbuz şəhər seçki dairəsi | Rüstəmova Gülşad Qəzənfər qızı | 75.28 |
| 35 saylı Kolanı seçki dairəsi | Tarverdiyeva Gülxarə Budaq qızı | 67.55 |
| 36 saylı Badamlı qəsəbə seçki dairəsi | Məmmədov Ramiz Gülməmməd oğlu | 68.53 |
| 37 saylı Culfa şəhər seçki dairəsi | Əliyev Əjdər Zahid oğlu | 65.29 |
| 38 saylı Yaycı seçki dairəsi | Xudiyev Rza Əli oğlu | 53.70 |
| 39 saylı Bənəniyar seçki dairəsi | Abdullayev Qəzənfər İsmayıl oğlu | 74.09 |
| 40 saylı Saltaq seçki dairəsi | Canməmmədov Canməmməd Ramiz oğlu | 53.21 |
| 41 saylı Ordubad şəhər seçki dairəsi | Məmmədov Bəxtiyar İbrahim oğlu | 74.38 |
| 42 saylı Aşağı Əndəmic seçki dairəsi | Abdullayev Arzu Kamal oğlu | 70.49 |
| 43 saylı Vənənd seçki dairəsi | Nəbiyev Ramil Paşa oğlu | 52.93 |
| 44 saylı Dəstə seçki dairəsi | Rzayev Elmar İlqar oğlu | 49.31 |
| 45 saylı Sabirkənd seçki dairəsi | Əhmədova Gülxarə Manaf qızı | 50.59 |



# Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər keçirilib

## Ali Məclisə seçkilərdə ən yüksək səs faizini onlar topladı

1 sentyabr 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilərdə ilkin nəticələrə əsasən ən yüksək səs faizini şəhid anası Rüstəmova Gülşad Qəzənfər qızı toplayıb (75,28).

Digər ən yüksək səs faizi toplayanlar isə Məmmədov Bəxtiyar İbrahim oğlu (74,38), Abdullayev Qəzənfər İsmayıl oğlu (74,09) və Bayramov Mübariz Rəcəb oğludur (74,07).

## 100 yaşlı seçici: "Ulu Öndərin siyasətinin layiqli davamçılarını millət vəkili kimi görmək istəyirəm"



Seçki məntəqələrində səsverməda iştirak etməkdə çətinlik çəkən və bu barədə məntəqə seçki komissiyalarına əvvəlcədən müraciət edən şəxslərin səs vermələri üçün daşınan qutular təşkil edilib. Belə ki, Şərur rayonunun ən yaşlı sakinləri məntəqəyə gəlməkdə çətinlik çəkdiyindən onlar üçün yaradılan bu şəraitdən istifadə edərək komissiya üzvlərinin iştirakı ilə səs veriblər.

Biz də rayonun ən yaşlı sakinlərindən olan, İbadulla kəndində yaşayan Dilbər Məmmədovanın fikirlərini öyrəndik: "Bu seçkidə mən Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin davamçılarını millət vəkili kimi görmək istəyirəm. Elə buna görə də ən layiqli namizədə səs verdim. Arzu edirəm ki, seçilən namizədlər ölkə başçısına, onun yürütdüyü siyasətə layiq olsunlar, qalib gələcək deputatlar işlərini xalqın etimadını doğruldacaq səviyyədə qursunlar. Ölkə rəhbərliyinə, xalqa və onun verdiyi səsə sadiq olsunlar. Xalqın səsiylə seçilən deputatlar xalqı eşidəcəklər, onların problemləri ilə maraqlanacaqlar. Mən elobamı təmsil edəcək deputatın daim yerli əhali ilə sıx təmasda olmasını istəyirəm. Çünki xalqın etimad göstərib seçdiyi deputat öz diqqətini, bacarığını əhalinin problemlərinin həlli yollarının tapılmasına, bu problemlərin müvafiq qurumlar qarşısında qaldırılmasında dəstək olmalıdır".

## Bütöv Azərbaycanın vətəndaşı olmaq qürurvericidir



5 saylı Babək-Naxçıvan-Culfa seçki dairəsi üzrə Culfa şəhər 32 saylı seçki məntəqəsində davam edən seçki prosesində Vətən müharibəsində şəhidlik zirvəsinə yüksəlmiş şəhid Kənan Quliyevin anası İlhamə Quliyeva ilə həmsöhbət olduq. Bildirdi ki, bir neçə ay öncə prezident seçkilərində də iştirak edib. Bu gün də parlament seçkilərində öz hüququndan istifadə edir.

Sevinir ki, namizədlər arasında torpaqlarımız uğrunda canını fəda edən şəhidlərin ailə üzvlərinin də adı vardır. Seçki çox sakit və mütəşəkkil keçir. Azad və bütöv Azərbaycan sakinləri gözəl Vətənimizin gələcəyi naminə səs verirlər. Bütöv Azərbaycanın işğaldan azad olunmuş ərazilərində – öz yurdlarında illər sonra səsvermə hüququndan istifadə edənlər Vətənin bütövlüyü uğrunda canından keçən qəhrəman şəhidlərin ruhuna dualar oxuyurlar.

## Bütöv Azərbaycanı xalqımıza bəxş edən oğulların ruhu şaddır



3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsinin 56 saylı seçki məntəqəsində səsvermə hüququndan istifadə edənlər arasında II Qarabağ müharibəsinin qəhrəmanlarından olan Xok kənd sakini şəhid Ülvi Cəfərovun atası Habil Cəfərov da var. Onunla söhbət zamanı dedi ki, Vətənini bütövləşdirən oğulların sayəsində bu gün Şuşada, Laçında öz yurd-yuvalarında əmin-amanlıq içərisində yaşayan sakinlər də seçki qutusu yanına gedib öz səsvermə hüququndan istifadə edirlər. Tanrı dövlətimizi qorusun.

## Gənclər ilk dəfə səsvermə hüququndan istifadə etməyin sevincini yaşayır



1 saylı Şərur-Sədərək seçki dairəsinin Sədərək rayonu ərazisində yerləşən 42 saylı seçki məntəqəsində səsvermə hüququndan ilk dəfə istifadə edən gənclərdən biri – İnci Rzazadə ilə həmsöhbət olduq. İnci xanım bildirdi ki, gənclər, öz növbəsində, ölkəmizin demokratik və sürətli inkişafı üçün səsvermə hüququndan istifadə edirlər. O da həmin gənclərdən biri olmağın sevincini yaşayır. Layiqli namizədə səs verdiyini qeyd edir.

***



İlk dəfə səs verən Sədərək rayon sakini Elnur Qasımlı bizimlə təəssüratlarını bölüşdü: – Bu gün xalqımız üçün ən əlamətdar günlərdən biridir. Vətəndaşlar öz layiqli namizədlərini deputat seçirlər. Özüm, eləcə də ailə üzvlərim seçkidə fəal iştirak edərək 1 saylı Şərur-Sədərək seçki dairəsinin 37 saylı seçki məntəqəsində səs verdik. İlk dəfə səs verdiyim üçün çox həyəcanlıyam. Seçkidə yaradılan şərait yüksək səviyyədədir. Hər kəs öz layiqli namizədinə səs verir.

## İnanıram ki, parlament seçkiləri xalqımız, dövlətimiz üçün uğurlu olacaq

Xəbər verdiyimiz kimi, Naxçıvan Muxtar Respublikasında Milli Məclisə 6, Ali Məclisə isə 45 dairə üzrə seçkilər keçirilir. Naxçıvan şəhəri üzrə bir neçə məntəqədə olduq, seçki prosesini izlədik. Əliabad qəsəbəsi 16 nömrəli tam orta məktəbdə yerləşən, 1191 seçicinin qeydə alındığı Milli Məclis üzrə 4-42 və Ali Məclis üzrə 33-6 saylı məntəqələrin qarşısında seçici fəallığı və yüksək əhvali-ruhiyyə ilə seçkiyə qatılmaq istəkləri diqqətimizi çəkdi. Hər kəs seçici siyahısından adını rahatlıqla tapır, sonra məntəqəyə daxil olaraq azad şəkildə səsvermə hüququndan istifadə edirdi.



Seçici, Vətən müharibəsi iştirakçısı, ehtiyatda olan baş leytenant Hüseyn Həsənovun fikirlərini öyrəndik: "2020-ci ildə ölkəmizin apardığı haqq müharibəsinə qatılaraq Xocavənd, Cəbrayıl və Qubadlı uğrunda döyüşlərdə iştirak etmişəm. Oktyabrın 20-də Qubadlı istiqamətində yaralanmışam. Ötən 4 il ərzində dövlətimizin diqqət və qayğısını daim hiss edirəm. Cəmiyyətimizin bütün üzvləri biz qazilərə hörmətlə, ehtiramla yanaşırlar. Artıq ikinci dəfədir ki, qalib Ordunun ehtiyatda olan zabiti, eyni zamanda da ərazi bütövlüyü, suverenliyi tam təmin olunmuş ölkənin nümayəndəsi kimi seçki prosesində iştirak edirəm. İnanıram ki, parlament seçkiləri xalqımız, dövlətimiz üçün uğurlu olacaq".

## Naxçıvanda da brayl əlifbası ilə səsvermə imkanı yaradılıb

Milli Məclisə növbədənkənar seçkilərin 4 saylı seçki dairəsinin 16 saylı məntəqəsi və Naxçıvan Muxtar Respublikası Ali Məclisə seçkilərin 27 saylı seçki dairəsinin 1 saylı məntəqəsi Naxçıvan şəhərindəki Gənclər Mərkəzinin binasında yerləşir. Bu məntəqələrin seçiciləri arasında olan görmə imkanı məhdud vətəndaş Elməddin Kərimov da səs verib. Görmə qabiliyyətini tam və ya qismən itirmiş vətəndaşlarımızın seçkilərdə səsvermə prosesində iştirak etməsi məqsədilə brayl əlifbası ilə seçki bülletenləri çap edilərək bütün seçki məntəqələrinə təqdim olunub. Bu məntəqələrdə seçici sayı, ümumilikdə, 1479 nəfərdir. Elməddin Kərimov təəssüratlarını bizimlə bölüşərək bildirdi ki, o da vətəndaş kimi seçki hüququndan istifadə edir. Səsvermə zamanı gözdən əlillər üçün bu cür şəraitin yaradılması dünya standartlarına tam uyğundur.

Əlavə etdi ki, onlar üçün bu şəraitin yaradılmasına sevinir. Tam rahatlıqla seçkidə iştirak edib və seçdiyi namizədə səs verib.



## Sakinlər seçkidə fəallıq göstərir



1 saylı Şərur-Sədərək seçki dairəsinin 39 saylı seçki məntəqəsində səsverməyə gəlmiş bir ailə ilə həmsöhbət olduq. Ailə başçısı Tural Əliyev seçki məntəqəsində yaradılan şəraitdən, şəffaflıqdan razılıqla danışdı. Bildirdi ki, çox həyəcanlıdırlar. Bu gün hər kəs öz vətəndaşlıq borcunu yerinə yetirir. Həmçinin budəfəki seçkilərdə şəhid ailə üzvlərinin və qazilərin namizədliyi onları da qürurlandırıb.

## Ziyalılar fikirlərini bizimlə bölüşdü



5 saylı Babək-Naxçıvan-Culfa seçki dairəsinin 8 saylı seçki məntəqəsində səs verən Nehrəm qəsəbə sakini, ziyalı Əhməd Həsənov da təəssüratlarını bizimlə bölüşdü: "Hər bir azərbaycanlının borcudur ki, seçkilərə getsin, vətəndaş kimi səsvermə hüququndan istifadə etsin. Öz seçdiyim namizədə səs verdim. İnanıram ki, şəffaf və ədalətli şəkildə keçirilən seçkilərdə layiqli namizəd qazanacaqdır. Bütün namizədlərə uğurlar arzu edirəm".

3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsinin 4 saylı seçki məntəqəsində səs verən Babək rayonunun Şəkərabad kənd sakini Leyla Kərimova öz təəssüratlarını belə ifadə etdi: "Bu gün ölkəmiz üçün çox əlamətdar bir gündür. Hesab edirəm ki, parlament seçkiləri respublikamızda həyata keçirilən digər layihələr kimi uğurlu olacaqdır. Bu görüşlərdə hər kəs artıq öz layiqli namizədini müəyyənləşdirdi. İnanıram ki, seçiləcək deputatlar onlara göstərilən etimadı layiqincə doğruldacaq, vətəndaşlarımızın problemləri ilə maraqlanacaqlar".



ŞƏRQ qapısı
Baş redaktor müavini: MƏMMƏD BABAYEV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Mühbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 020065441

Çapa imzalanmışdır 00:00

Nömrəyə məsul: Ceyhun Məmmədov
Məcid Əkbərov
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 261